**Nəriman Cabbar oğlu Hacıyev**

**UOT: 330:002.6; JEL: L15.**

# Azərbaycan Respublikasında elektron hökümətin inkişaf xüsusiyyətləri

***Xülasə***

*Elektron hökümət quruculuğu və onun inkişaf problemləri müasir dünyada öz aktuallığı ilə diqqət mərkəzindədir. Bu sahədə ciddi dəyişikliklər baş verməkdədir, xüsusilə də elektron hökümət – informasiyalı cəmiyyət sahəsindəki inkişaf meyilləri paralel həyata keçirilməsi ilə müşahidə olunur. Azərbaycan Respublikasında da elkeron hökümət quruculuğuna olan diqqət və qayğı son dövrlərdə öz genişliliyi ilə müşahidə olunur. Məqalədə elektron hökümət quruculuğu, bu sahədə göstərilən xidmətlərin inkişaf meyilləri araşdırılır. Ölkəmizdə elektron hökümətin müasir inkişaf səviyyəsinə diqqət yetirilir. Müavfiq sahədə göstərilən xidmətlərin əhatə dairəsinin artırılması ilə bağlı fikirlər irəli sürülür.*

***Açar sözlər:*** *elektron hökümət, elektron xidmətlər, informasiya texnologiyaları, informasiyalı cəmiyyət, hüquqi baza*

## Giriş

Müasir dünyamızda elektron hökümət və ona uyğun olaraq rəqəmsal iqtisadiyyatın formalaşması yüksək inkişaf səviyyəsi ilə diqqəti cəlb etməkdədir. Xüsusilə də ölkəmizdə də son dövrlərdə texnoloji və təşkilati şərtlər bu sahənin inkişafına daha yüksək təsir etmiş, nəticədə əvvəlki illər ilə müqayisədə əsaslı dəyişikliklər müşahidə olunmuşdur. Azərbaycan Respublikasının müasir inkişafında elektron hökümət və xidmətlərə olan diqqət davamlı olaraq yüksəlməkdədir. Qeyd olunmalıdır ki, ölkəmizdə son dövrlərdə qəbul olunan konseptual sənədlərdə və yol xəritələrində bu məqama daha da xüsusi önəm verilir. Belə yanaşma ölkəmizin bu sahədəki beynəlxalq reytinq mövqeyinin artırılması baxımından da vacib hesab olunmaqdadır. Bu baxımdan da ölkəmizdə dövlət idarəetmə sisteminin bütün mərhələlərində müasir informasiya – kommunikasiya texnologiyalarından, çevik proqram təminatındaan istifadə öz vacibliliyi ilə çıxış edir. Azərbaycanda son beş ildə bu sahədə həyata keçiirlən ciddi və çox şaxəli tədbirlər diqqətə layiq hesab olunmalıdır.

## Müasir dövrdə elektron hökümətin inkişaf xüsusiyyətləri

Müasir dövrümüzdə informasiya texnologiyalarının inkişafı və onların gücünün artması ilə yanaşı, dünya dövlətləri öz strukturlarının səmərəliliyini artırmaq (məsələn, dövlət xidmətlərini əhali üçün daha əlçatan etmək) üçün unikal imkana malik olurlar. Xüsusilə də dövlət və hökümət elektron xidmətiləri sahəsində belə potensiallar daha genişdir. Belə ki, bu sahədə qərarların qəbulu sürətinin artırılması, dövlət idarəetmə xərclərinin azaldılması, həmçinin cəmiyyətdə korrupsiyanın artması kimi mənfi tendensiyalarla uğurla mübarizə aparmaq zərurətləri genişlənir. Müaviq məqsədlər üçün istifadə olunan informasiya-kommunikasiya texnologiyalarının toplusu qismində məhz elektron hökumət sistemi daha səmərəli çıxış edir. Belə konseptual anlamın inkişafı XX əsrin sonlarında başlanmışdır. Həmin vaxtdan etibarən elektron hökumət dövlətin və cəmiyyətin həyatına fəal şəkildə daxil edilib, onun funksiyalarının dairəsi genişlənib, səmərəliliyi artıb. Elektron hökumət ideyası bir çox cəhətdən özəl şirkətlərdən götürülmüşdür, burada xidmətlərin göstərilməsinin elektron üsulları və daxili işin təşkili üçün rəqəmsal sistem yayılmağa başlamışdır [8;9]. Belə ki, özəl sektorda informasiya-kommunikasiya texnologiyalarından istifadə etməklə lazımi maliyyə-təsərrüfat əməliyyatları və xidmətləri bir “giriş nöqtəsindən” sifariş edə bilən müştərilər üçün “bir pəncərə” ideyası yayılmışdır. Eyni zamanda, yeni texniki imkanlar vasitəsilə dövlət ayrı-ayrı vətəndaşların, kommersiya təşkilatlarının və digər ictimai birliklərin rahatlığı üçün



©Nəriman Cabbar oğlu Hacıyev i.f.d., Azərbaycan Dövlət İqtisad Universiteti, doktorant. E-mail:narimangd@yahoo.com
©AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

müxtəlif idarələrin cavabdeh olduğu xidmətlərin göstərilməsi prosesini birləşdirə bilmişdir. Müasir tədqiqatlar göstərir ki, elektron hökumətin düzgün təşkili və hərtərəfli inkişafı ilə dövlət müvafiq istiqamətlərdə uğurlu nəticələrə nail olur [2;4]:

- Müxtəlif elektron xidmətlərin idarə edilməsi və göstərilməsi;
- Demokratik inkişaf proseslərinin dərinləşməsi;
- Vətəndaş cəmiyyətində münasibətlərrin təkmilləşdirilməsi;
- İnfomasiyalı cəmiyyətin formalaşması;
- Dövlət və özəl sektorlar arasında münasibətlərin inkişafı.

Bütün bu kimi müsbət tendensiyalar əslində elektron hökumət konsepsiyasının daha geniş mənaya malik olduğunu sübut edir. Vətəndaşların dövlətin və cəmiyyətin siyasi həyatında iştirakını artırmaq üçün informasiya və kommunikasiya texnologiyalarından istifadə elektron demokratiya quruculuğunun dərinləşdirilməsini zəruriləşdirir. Belə konseptual baxışın həyata keçirilməsi iki əsas funksiyanı yerinə yetirməlidir. Birincisi, o, vətəndaşların fikrini ölkə rəhbərliyinə çatdırmağa imkan verməli, ikincisi əhaliyə siyasətin müxtəlif məsələlərinin müzakirələrdə iştirakının təmin edilməsi. Son dövrün təcürbəsi deməyə əsas verir ki, elektron hökümətin idarəçilik fəaliyyəti belə mühüm məqsədlərə nail olmağa çalışmalıdır:

- İnformasiya ilə işləmək üçün standartların yaradılmasına yönəlmiş siyasətin qəbul edilməsi;
- Dövlət orqanlarının fəaliyyətini istehlakçının ehtiyaclarına yönəltməklə dövlət xidmətlərinin keyfiyyətinin yüksəldilməsi;
- Dövlət strukturlarının fəaliyyətinin səmərəliliyinin artırılması;
- Dövlət orqanlarının texniki, təşkilati və idarəetmə innovasiyalarından istifadə etməklə fəaliyyət xərclərinin azaldılması;
- İnformasiyaya çıxışı və ictimai müzakirələri asanlaşdırmaqla vətəndaşların demokratik prosesə cəlb edilməsi;
- İnzibati və struktur islahatlarının aparılması;
- Vətəndaşlar tərəfindən hesabatlılığın, şəffaflığın və hökumətə etimadın artırılması.

Ölkələrdə elektron hökumət çərçivəsində qarşılıqlı əlaqələr bir neçə səviyyədə həyata keçirilir. Fərqli mənbələr onların sayını artıra da bilər. Lakin əksər hallarda belə qarşılıqlı əlaqənin dörd səviyyəsi diqqət mərkəzində saxlanılır: "dövlət-vətəndaş" (hökumətdən vətəndaşa, "dövlət-biznes" (hökumətdən-biznesə), dövlət - hökumət orqanları. Müvafiq qarşılıqlı əlaqənin əsas hissəsi biləvasitə elektron hökumət xidmətləri ilə bağlı çıxış edir. Bu səviyyəyə - vətəndaşlara müxtəlif məlumatların verilməsi və dövlət xidmətlərinin göstərilməsi daxil edilir. Həmçinin, bura əsasən dövlət sənədlərinin, və arayışların verilməsi, ödənişlərin qəbulu, vergi bəyannamələrinin doldurulması və təhsil, səhiyyə sahəsində digər xidmətlərin göstərilməsi şamil olunur. Elektron hökumətin xüsusilə inkişaf etdiyi ölkələrdə elektron texnologiyaların köməyi ilə vətəndaşlar seçkilərdə iştirak etmək, daşınmaz əmlak almaq, satmaq və s. imkanlara malik olurlar. Eyni zamanda, belə xidmətlər internet saytları, mobil rabitə və sosial şəbəkələr vasitəsilə həyata keçirilir. Nəticədə, həm dövlət xidmətlərinin göstərilməsi üçün gözləmə müddəti, həm də onların göstərilmə zamanı azalmış olur. Digər tərəfdən, bir veb portalda əvvəllər müxtəlif departamentlərdə təqdim olunan xidmətlərə çıxış əldə etmək mümkünləşir. Elektron hökumətin fəaliyyəti ilə seçki problemlərinin həlli daha tez mümkünləşir. Belə ki, bu amil seçkilərdə məsafədən iştirak mexanizmi vasitəsilə xaricdə yaşayan ölkə vətəndaşlarının həyatını bir çox cəhətdən asanlaşdırır. "Dövlət-biznes" səviyyəsində qarşılıqlı əlaqə, ilk növbədə, elektron dövlət satınalmaları sisteminin yaradılması ilə xarakterizə olunur. Bu, tenderlərin şəffaflığının artmasına və müvafiq olaraq, müqavilə üçün müraciət edən şirkətlər arasında daha ədalətli rəqabətə səbəb olur. Bundan əlavə,



© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

elektron hökumət vergi və gömrük bəyannamələrinin verilməsi prosedurunu sadələşdirir və yeni firmaların qeydiyyatı prosesini asanlaşdırır. Elektron hökumətin informasiya funksiyası biznes üçün də faydalıdır, çünki o, şirkətlərə faydalı məlumatları, xüsusən də ölkədə və dünyada iqtisadi göstəricilər haqqında məlumatları əldə etməyə imkanlar yaradır. Dövlət-hökümət orqanları qarşılıqlı əlaqələri iki kateqoriyada diqqəti cəlb edir: yerli və ya daxili səviyyədə və ayrı-ayrı ölkələr arasında.

**Azərbaycanda elektron hökümət quruculuğu və xidmətlər**

Qeyd etmək lazımdır ki, son illər dövlət idarəçiliyinin müasir prinsiplər əsasında təşkili məqsədilə təkmilləşdirilən və çevik idarəetmə sisteminin tətbiqi istiqamətində zəruri sil-silə tədbirlər həyata keçirilmişdir. Əsasən də qısa müddət ərzində "elektron hökümət və xidmətlər" sisteminin təşkilinin ən vacib əsasları formalaşdırılmış, bu sahənin təşkili və tənzimlənməsi baxımından xüsusi əhəmiyyət kəsb edən hüquqi-normativ bazanın yaradılması istiqamətində addımlar atılmışdır. Xüsusən də qəbul olunan belə vacib hüquqi sənədlər aşağıdakıları qeyd etmək mümkündür [2; 3; 4; 5; 6]:

- Azərbaycan Respublikasında rabitə və informasiya texnologiyalarının inkişafına dair 2010–2012-ci illər üçün Dövlət Proqramı.
- "Azərbaycan Respublikasında "elektron hökumət"in formalaşdırılmasına dair 2010-2011-ci illər üçün Dövlət Proqramı.
- Dövlət orqanlarının və Azərbaycan Respublikasının Prezidenti tərəfindən yaradılan publik hüquqi şəxslərin elektron xidmətlər göstərməsinin təşkili sahəsində bəzi tədbirlər haqqında. Azərbaycan Respublikası Prezidentinin Fərmanı.
- Elektron hökumətin inkişafı və rəqəmsal hökumətə keçid ilə bağlı tədbirlər haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı.
- Əmək, məşğulluq, sosial müdafiə və sosial təminat sahələrində elektron xidmətlərin tətbiqinin genişləndirilməsi haqqında. Azərbaycan Respublikası Prezidentinin Fərmanı.
- Azərbaycan Respublikasında telekommunikasiya və informasiya texnologiyalarının inkişafına dair Strateji Yol Xəritəsi və s.

Ölkəmizdə elektron dövlətçilik yönümündə həyata keçiirlən islahatlar yalnız bu sahədəki sürətli inkişafa nail olmaq məqsədlərini qarşıya qoymamışdır. Göstərilməlidir ki, bu sahədə müəyyən olunan məqsədlərin çevrəsi daha genişiliyi iilə müşahidə olunmaqdadır və onları belə yönümdən də təsnifləşdirmək məqsədəuyğun olar [6]:

- Hökümət xidmətlərinin çeşidinin artırılması;
- Göstərilən dövlət xidmətlərinin sosial-iqtisadi əhəmiyyətliliyinin yüksəldilməsi;
- Ölkəmizdə biznes mühitinin sağlamlaşdırılması və elektronlaşdırılması;
- Cəmiyyətdə mövcud probelmli sahələrin və məsələlərin baxtında müəyyən edilməsi və ona qarşı tədbirlər görülməsi;
- Vətəndaş – məmur münasibətlərinin yeni müstəvidə qurulması;
- Korrupsiya və gizli iqtisadiyyat ilə mübarizə tədbirlərinin səmərəliliyinin artırılması;
- Özəl sektor və dövlət münasibətlərinin təkmilləşdiirlməsi;
- Qəbul olunan qanunvericilik sənədlərinin işlək mexanizmlərinin təkmilləşdiirlməsi.

Müasir təcürbədə elektron hökumətin inkişafı sahəsindəki əldə olunan uğurlar artıq dünya reyriqi səviyyəsində dəyərləndirilməkdədir. Belə ki, Birləşmiş Millətlər Təşkilatının İqtisadi və Sosial İnkişaf Departamenti tərəfindən müəyyən edilən "E-hökumətinin inkişafı indeksi (EDİ)" vasitəsilə belə qiymətləndirmələr aparılır. Ölkəmizin 2018-ci il üzrə reytinq mövqeyi 193 ölkə arasında 70-ci yeri tutmaqla müəyyən olunmuşdur. Göstərmək lazımdır ki, 2010-cı illə müqayisədə 2018-ci ildə ölkəmizin elektron hökümətin inkişaf indeksi üzrə beynəlxalq



© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

reytinq mövqeyi 19 pillə irəliləmiş, elektron xidmətlərdə iştirak üzrə reytinq səviyyəsi isə 1,6 dəfə yüksəlmişdir (qrafik 1) [2].

**Qrafik 1.**

**Azərbaycan Respublikasının "elektron hökümət indeksi" üzrə beynəlxalq mövqeyi**




Mənbə: BMT-nin Elektron Hökumət üzrə Araşdırması: 2018, Davamlı və davamlı cəmiyyət üçün e-hökumətin tətbiqi. publicadministration. un.org.

Son on ildə ölkəmizdə dövlət səviyyəsində elektorn xidmətlərin göstərilməsi sahəsində ciddi uğurlar əldə olunmaqdadır. Göstərilməlidir ki, artıq Azərbaycan Respublikasının Prezidenti yanında dövlət innovasiyaları üzrə elektron xidmətlərinn təşkilinə nail olunmuş, bu proses davamlı olaraq genişləndirilməkdədir. Belə geniş çeşidli xidmətlərdən, innovasiyalardan istifadə edilməklə həm də vətəndaşlara rahat, vahid məkanda xidmətlərin göstərilməsi mümkün olub. Belə xidmətlərin əsas təqdimatçı və təminedici quurmu kimi - "ASAN xidmət" mərkəzlərinin rolu xüsusi ilə göstərilməlidir. Həmin mərkəzlər dövlət məlumat bazalarının qarşılıqlı inteqrasiyasını təmin etməklə yanaşı, eyni zamanda, elektron xidmətlərin təşkilini də sürətləndirlər. Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin tabeliyində fəaliyyət göstərən "Elektron Hökumətin İnkişafı Mərkəzi"-də artıq elektron xidmətlər sahəsində digər strukturlarla sıx əməkdaşlıq edir və vətəndaşlara müxtəlif yönümlü elektron xidmətlər göstərirlər [2; 6; 7]. Belə xidmətlərin göstərilməsində elektron portallar, o cümlədən də "e-gov portalı" xüsusilə diqqəti cəlb etməkdədir. Digər tərəfdən, başqa vahid platforma olaraq - "My Gov" portalı (www.my.gov.az) fəallığı ilə fərqənir. Xüsusilə də, belə elektron mərkəzlər hökümətin real vaxt rejimində əhalinin məlumatlandırılmasına, sosial-iqtisadi məlumatların saxlanmasına, ötürülməsinə, digər elektron xidmətlərdən istifadəyə əlverişli şərait yaratmaqdadır. Ölkəmizdə hazırda Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar, Əmək və Əhalinin Sosial Müdafiəsi, Səhiyyə, Ədliyyə, Daxili İşlər Nazirlikləri, Dövlət Gömrük Komitəsi və digər mərkəzi icra hakimiyyəti orqanları da öz portallarında elektron xidmətlərə daha rahat və sadə çıxışı təmin etməkdədirlər. Qeyd olunmalıdır ki, qısa müddətlik fəaliyyətinin olmasına baxmayaraq, "Elektron Hökumət Portalı" artıq 450-dən artıq elektron xidmətlər təklif etməkdədir. Həmçinin də, dövlət, regional və yerli hakimiyyət orqan və təşkilatları müxtəlif sahələr üzrə: sosial müdafiə, sosial təminat, təhsil, səhiyyə, rabitə, gömrük, vergi, hüquq xidmətləri, onlayn ödənişlər, xüsusi razılıq/lisenziyaların verilməsi və s. - elektron xidmətlər göstərirlər [2; 6; 7].



*© AMEA İqtisadiyyat İnstitutu*
*© www.economics.com.az*

**Sxem 1.**

**Azərbaycan Respublikasında sahələr üzrə göstərilən elektron xidmətlərin mövqeyi**




Mənbə: Sxem Elektron Hökumət Portalı (e-gov.az) məlumatları əsasında müəllif tərəfindən hazırlanmışdır.



Təcürbə deməyə əsas verir ki, elektron xidmətlərin inkişafı dövlətin iqtisadi siyasətində başlıca prioritet istiqamətlərdən biridir. Ölkəmiz hazırda elektron xidmətlərin dünya inkişaf tendensiyası ilə də xarakterizə olunur və onun özünəməxsus inkişaf xüsusiyyətləri vardır. Elektron xidmətlərizin inkişaf səviyyəsində və strukturunda əsasən əhalinin ərazi-region, milli, sosial, mədəni və digər xüsusiyyətləri nəzərə alınmalıdır. Hesab edirik ki, yaxın gələcəkdə Azərbaycanda elektron xidmətlərin inkişafında aşağıdakı amillərin təsirləri artacaqdır:

- Müəssisə və təşkilatların elektronlaşdırılmasının baza səviyyəsinin aşağı olması səbəbindən elektron xidmətlərə keçidin çətinləşməsi;
- İri sistem inteqratorlarının yüksək iştirakının tələb edilməsi;
- Mobil telesistemlərin inkişafının ölkəmizin ərazi və kabel sistemlərinin aşağı sıxlığı ilə şərtlənməsi;
- Elektron xidmətlərin göstərilməsi sisteminin formalaşdırılmasının müəssisələrin istehsal və idarəetmə fəaliyyətinin avtomatlaşdırılması sisteminin tətbiqi ilə müşayiət olunması.

Müasir dövrdə artıq elektron xidmətlərin inkişaf meyilləri həmçinin, ticarət, bank xidmətləri, mətbuat və distant təhsil kimi sahələrdə geniş diqqəti cəlb etməkdədir. Bu xidmətlərin bəzilərinin çevrəsi daha da sürətlənməkdədir (internet müştərilərinə informasiya xidmətlərinin göstərilməsi və s.). Dövlətin elektron xidmətlərinin göstərilmə sisteminin fəaliyyətində əsas problemlərdən biri - əhalinin bu sistemə hazır olmamasıdır. Azərbaycan höküməti belə elektron xidmətin əsas məqamlarını yerinə yetirməkdədir:

- Strukturlar arası elektron rabitə xidməti;
- İdentifikasiya sistemi;
- Vahid dövlət xidmətləri portalı;
- Dövlət xidmətlərinin reyestri.

Azərbaycanda elektron xidmətlərin göstərilməsi üçün aydın arxitekturanın yaradılmasına da başlanmışdır. Bu baxımdan da dövlət strukturları tədricən bu arxitekturaya yeni xidmətlərlə daxil olmaqdadırlar. Beləliklə, elektron hökumətin vahid dövlət elektron xidmətlərin keyfiyyət standartının yaradılmasına ehtiycac vardır. olmalıdır. Dövlət elektron

© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

xidmətinin keyfiyyətinin yüksəldilməsi və onun qiymətləndirilməsi baxımından müvafiq tədbirlərin geniş tətbiqi zəruridir:

- Vahid dövlət elektron xidmətlərinə dair tələbləri müəyyən etmək üçün qanunvericiliyin inventarlaşdırılması;
- Dövlət elektron xidmətlərinin keyfiyyətinin monitorinqi;
- Ddövlət elektron xidmətlərinin keyfiyyət standartlarını müəyyən edən normativ hüquqi aktların hazırlanması.

Dövlət müəssisə və təşkilatları - ictimai elektron xidmətlərinin vahid keyfiyyət standartını yaradarkən bu xidmət prosesinin xüsusiyyətləri nəzərə almalıdırlar. Mvafiq elektron xidmətlərinin standartlaşdırılmasının əsasını elektron xidmətlərin göstərilməsi prosesi üçün informasiya və texniki dəstəyə tələbat və onların keyfiyyəti təşkil etməlidir. Nəticə etibarı ilə, elektron xidmətlərə dair dövlət standartları bu xidmətlərin keyfiyyətinə dair əsas tələbləri əks etdirməlidir. Dövlət elektron xidmətlərinin keyfiyyət standartları sisteminin hazırlanması bu xidmətlərin göstərilməsinin keyfiyyətinin artırılmasına və səlahiyyətli elektron hökumət orqanlarının büdcə xərclərinin optimallaşdırılmasına yönəldilməlidir. Qeyd olunmalıdır ki, həmin standartlar xidmələrin keyfiyyətinin yüksəldilməsində böyük rol oynayır. Daha doğrusu, hökümət və dövlət strukturlarının xərclərinin optimallaşdırılması cəmiyyətin ən mühüm problemlərinin həllinə və daha yüksək keyfiyyət standartlarına cavab verməyə yönəlməlidir.

**Elektron hökumətin formalaşdırılmasının maliyyə təminatı**

Müasir təcürbə göstərir ki, stabil maliyyələşmə və səmərəli menecment şəraitində qısa müddətdə elektorn hökumətin yaradılması və səmərəli fəaliyyəti daha tez öz həllini tapır. Belə hökumətin formalaşması çərçivəsində ayrı-ayrı layihələrin reallaşması çoxlu maliyyə vəsaitləri də tələb edir. Belə ki, müasir dövrdə Böyük Britaniya və Sinqapur ÜDM-inin - 1,8%-ni, Hindistan isə - 3%-ni elektron hökumət quruculuğuna xərcləyib [10]. ABŞ informasiya texnologiyalarının inkişafına ildə 43-60 milyard dollar vəsait yönəldir [11] ki, bu da əksər MDB ölkələrinin dövlət büdcəsindən, əsasən iki dəfədən də yüksəkdir. ABŞ-da federal mülki İKT büdcəsi ildə 75 milyard ABŞ dollarını keçimişdir. Elektron hökümət və xidmətlərin maliyyələşmənin müxtəlif mənbələr üzrə həyata keçirilməsi təcürbəsi mövcuddur. Bu məqsədlər üçün istifadə olunan - daxili maliyyə mənbələri daxili fondlardan, ya da cari büdcənin yenidən bölüşdürülməsi hesabına alına bilir. Təcürbədə - subsidiyalar elektron hökumət əlavələrinin istismarı, yaxud müxtəlif informasiyaların işlənilməsi proseslərinə çəkilən xərclərin ödənilməsi məqsədilə bir dəfə verilir. Tranzaksiyaların, yaxud istifadəçilərə əlavə rahatlığın yaradılmasının ödənişli olmasından əldə edilən əlavə gəlir hökumət xidmətindən istifadə edilənlərə yönəldilir. Xüsusilə də daha səmərəli, optimal və rasional əməliyyatlar aparılmaqla əldə olunan qənaətlərin elektron hökumət institutu tərəfindən aparılmış elmi araşdırmaları göstərir ki, dövlət agentlikləri dialoq xidmətinə keçməklə xərcləri 70%-dək azalda bilərlər [12].

Elektron hökümətin maliyyələşmənin xarici mənbələrinə reklamdan əldə olunan gəlirlər, dövlət və xüsusi sektorun əməkdaşlığının təşkili və istiqrazların buraxılması daxil edilir. Əsaəsn də ABŞ-ın bir çox ştatlarında belə hökumətlərin maliyyələşməsinin ilkin mərhələsində bir dəfəlik xərclərin ödənilməsində məqsədli istiqrazların buraxılışından əldə edilmiş vəsaitdən çox istifadə edilib. Qeyd etmək lazımdır ki, məhz belə maliyyələşmə elektron hökumət infrastrukturunun yaradılmasına geniş sərf olunur. Elektron hökumətin təşkilində, onun struktur əlavələrinin yaradılmasında ilkin vəsait qoyuluşu aparmadan dövlət - xüsusi sektor əməkdaşlığından istifadə edilməsi mümkün omur. Belə məqsədlə istifadə olunan əlavə mənbələrin rolu daha da artır və həmin vəsaitlər tranzaksiyalardan istifadə üçün



© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

ödənişlər hesabına formalaşır. Digər maliyyə mənbəyi daha çox hökumət saytlarında reklamların yerləşdirilməsindən daxil olan gəlirlər hesab olunur. Tranzaksiyalara, yaxud digər elektron xidmətlərə çəkilən xərcləri maliyyələşdirmək məqsədilə müəyyən edilmiş qaydada ödənişlər dövlət agentliklərinin qaytarılmayan fondlarına daxil olur.

Tədqiqatlar göstərir ki, elektron hökumətin yaradılma layihəsi dünya ölkələrində böyük maliyyə vəsaitləri tələb etdiyindən, o baha başa gəlir. Məhz buna görə də maliyyə cəhətdən nisbətən ucuz və əvvəlcədən gəlir gətirməyə hesablanmış layihələrə üstünlük verilməsi xüsusi zərurətdən irəli gəlir. Bu meylin inkişaf etməkdə olan ölkələrdə, o cümlədən keçmiş postsosialist ölkələrində (Azərbaycan Respublikası da daxil olmaqla) əsas götürülməsi daha məqsədəuyğundur. Belə layihələr ucuz, sərfəli, özünü maliyyələşdirən olmaqla, davamlı maliyyə mənbəyinə söykənməlidir. Bu istiqamətdə minimal ilkin investisiya qoyuluşuna əsaslanan müvafiq layihələr elektron hökumətin ən asan və ucuz başa gələn tərkib hissələri kimi uzun müddət uğurla və mənfəətlə fəaliyyət göstərə bilər. Belə ki, veb-saytlar buna nümunə ola bilər. Hesab edirik ki, elektron hökumət layihələrinin maliyyə mənbələri içərisində özəl sektor da xüsusi diqqət cəlb etməlidir. Özəl sektorla əməkdaşlıq elektron hökumətin bir sıra infrastruktur layihələrini maliyyələşdirməklə, onları daha məqsədli reallaşdırmaq imkanları yaradır. Xüsusilə də, özəl sektor həmin infrastrukturu idarə edərək öz mülkiyyət hüquqlarını saxlayır və müqavilədə nəzərdə tutulan şərtləri həyata keçirir. Elektron hökümətin müaliyyələşdirilməsinin MDB təcürbəsinin reallaşmasını əngəlləyən bir sıra problemlər mövcuddur:

- Əsassız yüksək xərclər;
- İcra müddətinin əsaslandırılmayan uzun müddətliliyi;
- Büdcə vəsaitlərindən istifadənin az səmərəliliyi;
- Layihə risklərinin yüksəkliyi;
- Qanunvericiliyin və standartların razılaşdırılmaması və qeyri-təkmilliyi.

Beynəlxalq təcrübədə elektron hökumət quruculuğunda aşağıdakı maliyyə mənbələrindən daha geniş istifadə olunduğunu göstərir:

- Dövlət büdcəsi hesabına vəsaitlər (bu e-hökumət quruculuğu üçün tələb olunan maliyyə vəsaitləri cəminin 50-60%-i səviyyəsindədir);
- Xarici investisiyalar;
- Xaricdən alınmış kreditlər;
- Ölkədə fəaliyyət göstərən biznes strukturlarının maliyyə vəsaitləri;
- Müxtəlif beynəlxalq təşkilatların ayırdıqları vəsaitlər.

Tədqiqatlara əsaslanaraq belə bir baxışı irəli sürmək mümkündür: elektron hökumət quruculuğunda maliyyə vəsaitlərindən səmərəli istifadə edilməsinin olduqca mühüm əhəmiyyəti vardır. Xüsusilə də belə hökumətin formalaşması və inkişafı hər bir ölkə və dünya üçün ciddi təhlükə mənbəyi olan korrupsiya və digər neqativ halların aradan qaldırılmasına əlverişli şərait yaratmaqla, maliyyə menecmenti və elektron xəzinədarlıq sisteminin yaradılmasının da vacibliyini gündəmə gətirir. Ölkəmizdə elektron hökümət quruculuğu sahəsində aparılan siyasətdə bu sahədəki strateji inkişafın dörd başlıca mərhələsinə diqqət yetirildiyini göstərməkdədir. Tədqiqatlar deməyə əsas verir ki, elektron hökümətin inkişafı və onun informasiya texnologiyalarının yayılma miqyasına və gətirdiyi faydalara baxmayaraq, dünyanın müxtəlif ölkələrinin, eləcə də müəyyən kateqoriyalı vətəndaşların onlara bərabər çıxışı mövcud olmur. Nəzərə alsaq ki, informasiya kommunikasiya texnologiyalarının əlçatanlığı informasiya cəmiyyətinə və "bilik iqtisadiyyatına" keçidi əvvəlcədən müəyyən edir. Lakin, qeyd olunan bərabərsizliklər dərinliyi ilə də diqqəti cəlb edir. Xüsusilə də onlar həm də informasiya bərabərsizliyinin yaranmasına da səbəb olur. Əvvəllər informasiya bərabərsizliyi problemi insanların müəyyən hissəsinin informasiya kommunikasiya



© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

texnologiyalarına çıxışının fiziki mümkünsizliyi və ya bu çıxışın həddən artıq yüksək qiyməti ilə xarakterizə olunurdusa, hazırda bu daha çox xidmətlərin keyfiyyətindəki fərqlərdən irəli gəlir. Ölkədə müəyyən informasiya xidmətlərinin mövcudluğu bir sıra amillərdən, o cümlədən ölkənin iqtisadi inkişaf səviyyəsindən, İKT sahəsində dövlət siyasətindən, informasiya texnologiyalarının hüquqi tənzimlənməsinin xarakterindən, bu sahəyə investisiyaların həcmindən də asılıdır.

**Nəticə**

Müasir dünyada elektron hökümətin inkişafı daha da güclənməkdədir. Bu sahədə aparılan islahatlara, yönəldilən investisiyaların həcmi də ildən-ilə artmaqdadır. Azərbaycan da bu proseslərdən kənarda qalmayaraq, daha fəal mövqeyi ilə çıxış etməkdədir. Lakin, hazırda bu xidmətlərən istifadəçilərinin əksəriyyətinin ali və ya orta təhsilli insanlar olması da müşahidə olunur. Onların belə xidmətlərdən istifadə sahəsində ciddi fərqlər qalmaqdadır. Xüsusilə də müasir internet auditoriyası cəmiyyətin bütün təbəqələrinin kəsişməsi məkanı kimi diqqəti cəlb edir. Bu baxımdan da real cəmiyyətdə mövcud olan bərabərsizlik sosial, iqtisadi və mədəni xüsusiyyətləri ilə yanaşı, uğurla onlayn rejimə keçir. İnformasiya-kommunikasiya texnologiyalarına və internetə çıxış, insanlara indiyədək görünməmiş faydalar verir və bu amil də elektron hökümət quruculuğunda mühüm rol oynayır. Xüsusilə də belə çıxışın mövcudluğu bütün bu üstünlükləri nəzərə almamaqla yanaşı, daha böyük məlumat və deməli, sosial bərabərsizliyə səbəb olur. Azərbaycanda elektron hökümət quruculuğu ilə həyata keçirilən tədbirlərin daha da genişləndirilməsinə ciddi ehtiyaclar vardır. Əsasən də bu sahədə maliyyələşmə, mariflendirmə tədbirlərinin əhatə dairəsinin genişləndirilməsi daha məqsədəuyğun hesab olunmalıdır.



**Ədəbiyyat**


1. “Azərbaycan 2020: Gələcəyə Baxış” İnkişaf Konsepsiyası. Bakı, 2012.
2. Azərbaycan Respublikasında telekommunikasiya və informasiya texnologiyalarının inkişafına dair Strateji Yol Xəritəsi. Bakı, 2016
3. Azərbaycan Respublikasında rabitə və informasiya texnologiyalarının inkişafına dair 2010–2012-ci illər üçün Dövlət Proqramı. https://e-qanun.az/framework/19936.
4. “Azərbaycan Respublikasında “elektron hökumət”in formalaşdırılmasına dair 2010-2011-ci illər üçün Dövlət Proqramı. https://e-qanun.az/framework/19968.
5. Dövlət orqanlarının və Azərbaycan Respublikasının Prezidenti tərəfindən yaradılan publik hüquqi şəxslərin elektron xidmətlər göstərməsinin təşkili sahəsində bəzi tədbirlər haqqında. Azərbaycan Respublikası Prezidentinin Fərmanı. https://e-qanun.az/framework/21716.
6. Elektron hökumətin inkişafı və rəqəmsal hökumətə keçid ilə bağlı tədbirlər haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı. Bakı şəhəri, 14 mart 2018-ci il.
7. Əmək, məşğulluq, sosial müdafiə və sosial təminat sahələrində elektron xidmətlərin tətbiqinin genişləndirilməsi haqqında. Azərbaycan Respublikası Prezidentinin Fərmanı. Bakı şəhəri, 5 sentyabr 2018-ci il.
8. Бачило И.Л. Причины и суть эволюции государственных и правовых институтов в условиях информатизации. Вопросы правоведения. 2012. № 3. С. 114–145.
9. Буринов М.А. Электронное правительство как фактор совершенствования регионального управления в условиях информационного общества. / М.А. Буринов // Государственная власть и местное самоуправление. – 2013. – № 3. – С. 17–19.
10. Данилов Н.А. Электронное правительство и трансформационные изменения публичного сектора. /Н.А. Данилов // Проблемный анализ и государственно-управленческое проектирование: научный журнал. – 2012. – № 5. – С. 26–35.


© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

11. Ковалёва Н.Н. Государственное управление в информационной сфере [Текст] / Н.Н. Ковалёва // Государство и право. – 2013. – № 2. – С. 78– 87.
12. Сурин А.В. Стратегии развития электронного правительства. // Вестник Московского университета. Сер. 21, Управление (государство и общество). – 2006. – № 2. – С. 3–16.

***Нариман Джаббар оглу Гаджиев***

***Особенности развития электронного правительства в Азербайджанской Республике***

***Резюме***

*Построение электронного правительства и проблемы его развития находятся в центре внимания в современном мире по своей актуальности. В этой сфере происходят серьезные изменения, особенно при параллельной реализации тенденций развития в сфере электронного правительства – информационного общества. Внимание и забота о построении элькероновского правительства в Азербайджанской Республике в последнее время наблюдаются с большим размахом. В статье рассматривается построение электронного правительства, тенденции развития услуг, предоставляемых в этой сфере. В нашей стране уделяется внимание современному уровню развития электронного правительства. Выдвигаются идеи по увеличению охвата услугами, оказываемыми в льготной сфере.*

***Ключевые слова:*** *электронное правительство, электронные услуги, информационные технологии, информационное общество, правовая база*

***Nariman Jabbar Hajiyev***

***Features of development of e-government in the Republic of Azerbaijan***

***Summary***

*E-government building and its development problems are in the spotlight for their relevance in the modern world. Serious changes are taking place in this area, especially with parallel implementation of development trends in the field of e – Government-Information Society. The attention and care for elkeron government building in the Republic of Azerbaijan has been widely observed in recent years. The article examines e-government building, development trends of services provided in this field. Attention is paid to the modern level of development of e-government in our country. Opinions are put forward on increasing the coverage of the services provided in the deputy field.*

***Keywords:*** *e-government, e-services, information technology, information society, legal base*



***Elmi redaktor: i.f.d., dos. Y.Məmmədov***
***Daxil olub: 15.12.2021.***
***Çapa qəbul olunub: 23.12.2021.***

*© AMEA İqtisadiyyat İnstitutu*
*© www.economics.com.az*